# Şəhid General Süleymaninin vəsiyyəti

بسم الله الرحمن الرحيم

" أشهدُ أن لا إله إلا الله و أشهَدُ أن محمدًا رسولُ الله و أشهدَ أن أميرالمؤمنين على ابن أبى طالب و أولادِهِ المعصومينَ اثنى عشرَ أئمّتنا و مَعصومينا حُجج الله"

Allahın adı ilə



Allahın hökmlərinə şəhadət verirəm!

Şəhadət verirəm ki, Allahdan başqa tanrı yoxdur və şəhadət verirəm ki, Məhəmməd (s.ə.s) Allahın rəsuludur və Əli İbn Əbu Talib möminlərin əmiri və məsumların imamların birincisidir.

Şəhadət verirəm ki, Qiyamət günü, Qurani-Kərim, cənnət və cəhənnəm, sorğu-sual, ölümdən sonra dirilmək, mizan-tərəzi, peyğəmbərlik və imamət haqqdır.

Ey rəbbimiz, verdiyin nemətlər üçün sənə həmd edirəm!

İlahi məni sülbdən sülbə, əsrdən əsrə, nəsildən nəsilə köçürərək, məsumlara ən yaxın olan ən müqəddəs şəxslərdən, saleh bəndələrdən biri olan böyük Xomeyninin düşüncələrini (r.ə) dərk edib, onun əsgəri olmağımın mümkün olduğu bir dövrdə yaratdığın üçün şükür edirəm. Böyük peyğəmbərin Məhəmməd Mustafanın (s) səhabəsi olmağa müvəffəq olmasam da, dünyanın və xilqətin canı olan və bu yolda canlarını fəda edən Əli ibn Əbu Talibin(ə), məsum və məzlum övladlarının dövründən bəhrələnə bilməsəm də, məni də həmin yolda qərar verdin.

İlahi, sənə həmd edirəm ki, məni bir saleh bəndəndən sonra, daha bir saleh bəndən olan məzlumiyyəti böyük olan Xameneinin yolunda qərar verdin. Əziz Xamenei elə bir şəxsdir ki, bugünki İslamın, şiəliyin, İranın və dünyanın hakimidir. Canım ona fəda olsun!

Rəbbim , məni ən yaxşı qullarınla əlaqələndirdiyin üçün təşəkkür edirəm

Onların cənnətdə üzündən öpdüyünü hiss etmək, yəni bu yolun şəhidlərini və mücahidlərinin mənəvi ətirlərinin iyini hiss etmək mənim üçün çətin deyildi.

İlahi, əziz Qadir Rəhman və Rəzzaq, alnımı Fatimə Əthar və övladları yolunda şiə dinində, İslamın həqiqi ətrində qoyduğun üçün minnətdarlıq astanasına qoydum və Əli ibn Əbi Talibin (ə) və Fatimə Ətarın övladları üçün gözyaşı tökdüm. Siz fayda götürdünüz. Sizin ən yüksək və ən dəyərli nemətiniz nə qədər böyük bir nemətdir: işığın içində olan nemət, içindəki ən yüksək məqamlara sahib olan mənasızlıqdır. Sülh və mənəviyyata sahib olan kədərdir.





İlahi, məni kasıb, lakin təqvalı, Əhli beytə aşiq və bu pak yola bağlı bir ata-anadan dünyaya gətirdiyin üçün minnətdaram. Acizanə səndən istəyirəm ki, onları cənnətdə qərar ver və mənə də axirətdə onların hüzurunda dayanmağı nəsib et.




## İlahi, məni bağışlamağını ümid edirəm!

Ey uca rəbbim, ey mislisiz yaradan hakim, əlim boşdur və azuqə çantam boşdur. Mərhəmət və bağışlamağını ümid edərək, əliboş halda dərgahına gəlirəm. Heç bir axirət azuqəsi götürməmişəm. Çünki Kərimin hüzuruna gedərkən azuqəyə ehtiyac yoxdur!

Sarığım və çarığm sənin lütf və mərhəmətinə olan ümidim ilə doludur. Özüm ilə birlikdə iki qapalı göz gətirdim. Onlar, bütün kirliliklərlə birlikdə dəyərli bir xəzinəyə sahibdirlər. Həmin xəzinə də, həzrəti Fatimənin (ə) övladı Hüseyinə tökdüyüm göz yaşlarıdırlar. Əhli-Beyt (ə) üçün axıdılan göz yaşları, zalım əlində olan məzlumları müdafiə üçün tökülən cövhərdir.

Ey rəbbim! Mənim əlimdə heç bir şey yoxdur: Nə ərz edəcəyim bir şey var, nə də ki, müdafiə edən güc; Ancaq əlimdə ümid etdiyim bir şey var ki, o da daim sənə doğru hərəkət etməkdir: Əllərimi sənə tərəf qaldıranda, onları sənin üçün yerə və dizlərimin üstünə qoyanda, dinini müdafiə etmək üçün silah tutanda əllərim mənim sərvətimdir.Ümid edirəm ki, onları qəbul edərsən.

Vallah, ayaqlarım zəifdir. Taqəti yoxdur. Cəhənnəmin üzərində olan körpüdən keçməyə cəsarəti çatmaz. Normal bir körpüdə belə ayaqlarım titrəyir.

Tükdən incə və qılıncdan da kəskin olan Sirat körpüsündən keçərkən vay mənim halıma! Ancaq bir ümid mənə titrəməyəcəyini, xilas ola biləcəyimi vəd edir: Bu ayaqlarımla müqəddəs hərəminə ayaq basdım. Kəbəni təvaf etdim. İki dostunun - həzrəti Hüseyn (ə) və həzrəti Abbasın (ə) müqəddəs hərəmləri arasında yalın ayaq qaçdım və dininin müdafiəsi üçün pusqular zamanı bu ayaqları uzun müddət bükülü tutdum. Qaçdım, süründüm, ağladım, ağlatdım, güldüm və güldürdüm, yıxıldım və ayağa qalxdım. Ümid edirəm ki, bu düşüb-qaxmaqları, sürünməkləri və bu müqəddəs yerlərin şərəfinə onları bağışlayacaqsan.

İlahi, başım, ağlım, dodaqlarım, qulağım, ürəyim, bütün üzvlərim və oynaqlarım eyni ümiddədirlər. Ey mərhəmətlilərin ən mərhəmətlisi! Məni qəbul et, məni təmiz qəbul et, səni görməyə layiq olduğum ən yaxşı halda qəbul et. Sənə qovuşmaqdan başqa heç bir şey istəmirəm. Ey rəbbim! Mənim cənnətim sənin yanında olmaqdır.

## İlahi, dostlarımın karvanından geridə qaldım!

Ey rəbbim! İllərdir bir karvandan ayrı düşdüm. Yaxın dostlarım ona tərəf yollandı. Ancaq mən özüm geridə qaldım. Ancaq bilirsiniz, mən onları heç vaxt unuda bilməzdim. Onların xatirəsini sadəcə ağlımda deyil, ürəyimdə də göz yaşları və ah-nalə ilə xatırladım.

Əzizim, bədənim zəif düşüb. Qırx ildir qapında gözləyən birini necə qəbul etməzsən?! Ey mənim yaradanım, sevgilim, səndən daim arzu etdiyim bütün varlığımı öz məhəbbətinlə doldurmağındır. Məni hicranında yandır və öldür!

Əzizim! Karvandan ayrı düşməyin narahatçılığından və xəcalətdən çöllərə düşdüm. Qış – yay bilmədən şəhərdən şəhərə, səhradan səhraya üz tuturam. Ey Kərim! Ey Həbib! Mən sənin kərəminə ümid edirəm. Bilirsən ki, mən səni sevirəm. Bilirsən ki, mən səndən başqa bir şey istəmirəm. Məni özünə qovuşdur!

İlahi! Qorxu bütün varlığımı ələ keçirdi. Nəfəsimi idarə edə bilmirəm; Mənim rüsvay olmağıma izin vermə. Öz dərgahında qəbul etdiyin insanların hörməti xatirinə! Onlara rüsvay olmamışdan əvvəl məni karvanına qovuşdur.

Ey məbudum! sevgilim və istəklim. Səni sevirəm! Səni dəfələrlə hiss etdim və səndən ayrıla bilməyəcəyimi bildim. Bu qədər bəsdir. Məni qəbul et. Lakin sənə layiq olduğum halda qəbul et!

## Mücahid qardaş və bacılara müraciət!

Bu dünyadakı mücahid qardaşlarım! Ey başlarını Allaha yolunda nəzr edənlər! Ey canlarına ovuclarına alıb, eşq bazarında satmağa aparanlar! Bilin ki, İslam Respublikası İslam və Şiəliyin mərkəzidir. Bu gün Hüseyn bin Əlinin qərargahıdır. Bilin ki, İslam Respublikası da bir ziyarətgahdır və əgər bu ziyarətgah qalsa, digər ziyarətgahlar qalacaqdır. Düşmən bu ziyarətgahı məhv etsə, başqa ziyarətgahlar da məhv olar. Nə İbrahim (ə) ziyarətgahı, nə də Məhəmmədin (s.ə.s) ziyarətgahı qalmaz.

Qardaşlarım, İslam dünyası daimi rəhbərliyə ehtiyac duyur. Elə rəhbər ki, dini və fiqhi cəhətdən məsumlara bağlılığı olsun. Yaxşı bilirsən ki, dünyanı silkələyən ən təmiz din alimi - yəni böyük və pak Xomeynimiz İslamı diriltdi. Vəlayət-e-Fəqihi bu millətin yeganə xilaskar seçimi olaraq elan etdi. Buna görə də, istər bir şiə olaraq o yola inansanız, istərsə də ağılla ona inan sünnilər, İslamı xilas etmək üçün vilayət çadırından ayrılmamalısınız. Bu çadır Allah Rəsulunun (s.ə.s) çadırıdır. Dünyanın İslam Respublikası ilə düşmənçiliyinin əsası bu çadıra od vurub, onu məhv etməkdir. Onun ətrafını dövrələyin. Vallah, billah bu çadıra ziyan dəysə, Allahın müqəddəs evi olan Kəbə, Allah Rəsulunun hərəmi, Nəcəf, Kərbəla, Kazimeyn, Samira və Məşhədidə olan ziyarətgahlar da qalmayacaq və Quran zərər görəcəkdir.

## İranlı qardaşlara müraciət!

Əziz iranlı bacı-qardaşlarım, şərəfli və qürurlu insanlar! Mən və mənim kimilərin həyatı min dəfə sizə qurban olsun! Necə ki, siz İslam və İran üçün yüz minlərlə həyatı qurban verdiniz. Prinsiplərinizi qoruyun! Vilayəte fəqih anlayışını müdafiə edin. Din, mərifət, fiqh, irfan və təqvada örnək olan hörmətli Xameneini əziz bilin və onun müqəddəsliyinə hörmət edin.

Əziz qardaşlar, atalar və analar! İslam Respublikası bu gün ən qürurlu dövrünü yaşayır. Bilin ki, düşmənin sizə necə baxdığı önəmli deyil. Xatırlayın ki, düşmən sizin peyğəmbərinizə necə baxırdı. Düşmənlər Allahın peyğəmbəri və onun nəsilinin davamçıları ilə necə davranırdı? Ona qarşı hansı ittihamlar irəli sürürdü? Onun pak övladlarına necə münasibət bəsləyirdilər? Düşmənlərin qınanması, böhtanları və təzyiqləri sizi bölməsin!

Bilirsiniz ki, əziz Xomeyninin ən vacib xidməti əvvəlcə İslamı İranın dəstəyi edib, daha sonra isə İranı İslamın xidmətində saxlamaq idi. Əgər İslam olmasaydı və İslam ruhu bu millətə hakim olmasaydı, Səddam bu ölkəni canavar kimi parçalayardı. Amerika da quduz bir it kimi eyni şeyi edərdi. Ancaq İmamın (r.ə) əsas xidməti İslamı dəstəkləmək, Aşura və Məhərrəm, Səfər və Fatimiyyəni bu millətin dayağı edib, inqilab içində inqilab yaratmaq idi. Bu səbəbdən də, hər dövrdə minlərlə əsgərimiz siz İran xalqı, İran və İslam torpağı üçün canlarını fəda etmiş, ən böyük gücləri məğlub etmişdirlər. Əzizlərim, prinsiplər baxımından ixtilafa düşməyin.

Şəhidlər bu gün üçün deyil, hər zaman hamımızın şərəf və ləyaqət nişanıdırlar. Onlar uca Allahın dərin dənizinə baş vurublar. Onları gözlərinizdə, ürəyinizdə və dilinizdə ucaldın. Necə ki ucadırlar! Övladlarınızı onların adları və şəkilləri ilə tanış edin. Hamınızın yetimləri sayılan şəhid övladlarına nəzakət və hörmətlə yanaşın. Həyat yoldaşlarına və valideynlərinə hörmət edin. Övladlarınıza nəvazişlə yanaşdığınız kimi, atalarının, analarının, yoldaşlarının və övladlarının yoxluğunda onlara da xüsusi diqqət yetirin.

Bugün sizi, dininiz İslamı və ölkənizi müdafiə etmək üçün Vəliyi fəqihin əmrində olan silahlı qüvvələrə hörmət göstərin. Silahlı qüvvələr milləti, xalqını və torpağını öz evlərini qoruduğu kimi qorumalı və hörmət göstərməlidir. Eyni zamanda, Əmirəlmömin Əlinin (ə) də buyurduğu kimi, silahlı qüvvələr millətin ləyaqətinin mənbəyi, məzlumların və xalqın qalası, sığınacağı, ölkəsinin zinəti olmalıdır.

## Əziz Kirman xalqına müraciət!

Mənim əziz Kirman xalqına da xitab etmək istədiyim bir məsələ var. Gözəl insanlar! Səkkiz illik müqəddəs müdafiə dövründə ən böyük fədakarlıqlar göstərərək, çox dəyərli komandir və mücahidləri İslama təqdim etdiniz. Mən həmişə onlardan xəcalətliyəm. Onlar səkkiz il mənə etibar etdilər. Uşaqlarını Kərbəla 5, Vəl-Fəcr 8, Qüds Yolu, Fəthül-Mubin, Beytül-Müqəddəs və s. kimi gərgin döyüşlərə göndərdilər və məzlum İmam Hüseyn ibn Əlinin eşqinə onun adını Sarallah ordusu adlandırdılar.

Əzizlərim! Allahın lütfü ilə sizdən ayrılmış olacağam. Sizi valideynlərimdən, övladlarımdan və qardaşlarımdan daha çox sevdim. Çünki onlardan daha çox sizinlə zaman keçirdim. Mən onların, onlar da mənim varlığımın bir hissəsi olsaq da, qəbul etdilər ki, varlığımı sizə və İran millətinə həsr edim!

İstərdim ki, Kirman vilayəti həmişə və əbədiyyən Vilayətə sadiq qalsın. Bu vilayət Əli ibn Əbu Talibin (ə) vilayəti, Fatimənin (ə) və Hüseyninin (ə) çadırıdır. Onun ətrafında qalın. Hamınıza xitab edirəm. Bilirsiniz ki, həyatda siyasi rənglərdən daha çox insanlığa və fitrətlərə önəm verdim. Məni özünə qardaş və övlad kimi bilən hamıya səslənirəm. Sizə vəziyyət edirəm ki, İslamı və onun prinsiplərini qorumağa çalışan bu inqilabı tək qoymayın. İslamı müdafiə etmək xüsusi zəka və anlayış tələb edir. Siyasi məsələlərdə İslam, İslam Respublikası, müqəddəs dəyərlər və Vilayəte-fəqih kimi mövzular Allahın rəngləridirlər. Allahın rənglərini digər rənglərdən üstün tutun!

## Şəhid ailələrinə müraciət!

Övladlarım, qızlarım, oğullarım, şəhid övladları, şəhid ata və anaları, ölkəmizin yanan işıqları, şəhidlərin sadiq və dindar qardaşları, bacıları və həyat yoldaşları! Bu dünyada hər gün eşitdiyim və tanış olduğum Qurani-Kərim səsi kimi məni sakitləşdirən və ən böyük mənəvi dəstəyimi olan səs şəhid övladlarının səsidir. Şəhidlərin ata və anasının səsi, bütün varlığımda his etdiyim ata və anamın səsi kimidir.

Əzizlərim, bu millətin öncüləri olan özünüzün dəyərinizi bilin. Şəhidinizi özünüzdə yansıdın. Belə ki, sizi şəhidin atası və ya övladı olaraq görən hər kəs, şəhidin özünü görmüş kimi hiss edib, həmin mənəviyyatı, gücü və xüsusiyyətləri duysun.

Xahiş edirəm ki, məni halal edin və bağışlayın. Bir çoxunuz, hətta şəhid övladlarının haqqını da lazımi kimi yerinə yetirə bilmədim. Buna görə də, həm sizdən üzr istəyirəm, həm də bağışlanma diləyirəm.

Şəhid uşaqlarının cəsədimi çiyinlərində daşımalarını istəyirəm. Bəlkə Allah onların təmiz əllərinin bərəkəti xatirinə məni inayət edər.

## Ölkə siyasətçilərinə müraciət!

İstər özlərini "islahatçılar", istəsə də "fundamentalistlər" adlandıran ölkə siyasətçilərinə qısa müraciətim var. Bəzən iki nöqtədə Allahın və Quranın əmirlərini unuduruq. Bu isə mənim hər zaman narahat olduğum məsələdir. Əzizlərim! Bir-birinizlə rəqabət edə bilərsiniz. Hər hansı bir məsələdə fikir ayrılığınız ola bilər. Amma əməlləriniz və danışıqlarınız, və ya yanaşmalarınız dini və inqilabı zəiflədirsə, bilin ki, İslamın əziz peyğəmbəri və şəhidləri qəzəbinə düçar olacaqsınız. Sərhədlərinizi ayırın.

Birlikdə olmaq istəyirsinizsə, birlikdə olmağın şərtləri, prinsiplər barədə razılaşmaq və onları açıq şəkildə ifadə etməkdir. Prinsiplər uzun və ətraflı deyil. Prinsiplər bəzi vacib şərtdən ibarətdir:

1. Bunlardan birincisi, Vilayət - Fəqihə inancının əməldə isbatıdır. Yəni onun nəsihətləini eşidib, həqiqi bir dini və elmi həkim kimi onun tövsiyə və öyüdlərinə ürəkdən əməl etməkdir. İslam Respublikasında vəzifə tutmaq istəyən hər bir kəs üçün əsas şərt bundan ibarətdir ki, Vilayet - Fəqihə etiqad etsin və bu çərçivədə hərəkət etmiş olsun. Vilayət Fəqih inancı bu qədər şəhid verən bir İslam ölkəsinin ağır yükünü icra etmək üçün çox önəmlidir.

2. İslam Respublikasına və onun əsaslarına həqiqi inam, əxlaq və dəyərlər də daxil olmaqla, istər millət, istərsə də İslam qarşısında məsuliyyət daşımaq.

3. Bir kəndin süfrəsinə də çatmış olsalar, keçmiş xanların xatirəsini canlandıran insanları deyil, millətə inanan və ona xidmət edən dürüst insanları vəzifəyə gətirmək.

4. Korrupsiyaya qarşı mübarizə aparmaq, həmçinin korrupsiyadan və dəbdəbədən çəkinmək

5. Hakimiyyət və idarəçilik dövründə icra etdikləri hər vəzifədə xalqa hörmət göstərmək, onlara xidmət etməyi ibadət saymaq. Millətin həqiqi xidmətçiləri olaraq dəyərləri inkişaf etdirmək və bəzi yersiz əsaslarla dəyərlərimizin saxtalaşdırılmasını boykot etmək.

Məmurlar, cəmiyyətin atası kimi onun maarifləndirilib qorunmağı ilə bağlı vəzifələrinə diqqət yetirməlidir. Laqeydlik edərək, bəzi keçici emosional hisslərə cəlb olunaraq, cəmiyyətdə boşanma və korrupsiyanı təşviq edən əxlaqi baxışları dəstəkləməməlidir. Hökumətlər ailənin möhkəmlənməsində, digər tərəfdən ailənin dağılmasında mühüm faktordur. Əgər prinsiplərə əməl olunarsa, bu o deməkdir ki, hər kəs Ali rəhbərin, inqilabın və İslamın doğru prinsipləri yolundadır. Ən doğru olanı seçmək üçün, bu prinsiplərə əsaslanan həqiqi bir rəqabət olacaqdır.

## İslam İnqilabı Keşikçiləri Korpusu və ordudakı qardaşlarıma müraciət!

Orduda və İslam İnqilabı Keşikçiləri Korpusunda olan əziz və fədakar qardaşlarıma qısa bir müraciətim var: Komandirlərinin seçilməsində, əsas göstəricilər olaraq cəsarət, qorxusuzluq və yaranan böhranları idarə etmək bacarıqlarını nəzərə alın. Təbii ki, Vilayət Fəqih mövzusunu qeyd

etməyi belə ehtiyac bilmirəm. Çünki vilayət silahlı qüvvələrin tərkibində deyil. Daha doğrusu,o silahlı qüvvələrin mövcud olmasının əsasıdır. Bu şərt dəyişilməzdir.

Başqa bir məqam isə, düşmənin siyasətlərini və hədəflərini vaxtında bilmək , vaxtında qərar vermək və vaxtında hərəkət etməkdir. Bunların hər biri, öz vaxtında edilmədiyi təqdirdə, müvəffəqiyyətinizə ciddi təsir göstərəcəkdir.

## Alimlərə və ali orqanlara müraciət:

Meydandakı qırx yaşlı bir əsgərdən cəmiyyəti maarifləndirən, zülməti aradan qaldıran böyük alimlərə və dəyərli şəxslərə, xüsusən də böyük mərce təqlidlərə qısa bir müraciət: Əsgəriniz bir gözətçi qülləsindən gördü ki, bu sistem zədələnsə din və sizin elmi hövzənizdə nə qədər çətinliklər bahasına qorumaq üçün çalışdığınız bütün dini dəyərlər də yox olacaqdır. bu dövr bütün digər dövrlərdən fərqlidir. Bu dəfə hakimiyyəti ələ keçirəcəkləri təqdirdə İslamdan heç bir şey qalmayacaq. Doğru yol, inqilabı, İslam Respublikasını və Ali Rəhbəri qeyd şərtsiz dəstəkləməkdir.




Fərqli hadisələrdə başqaları İslamın ümidi olan sizləri çəkindirməməlidir. Hamınız mərhum İmam Xomeynini sevərək onun yoluna inandınız. İmamın yolu, Vilayəte Fəqih bayrağı altında Amerika Birləşmiş Ştatları ilə mübarizə aparmaq, İslam Respublikasını və imperializmin zülmü altında olan müsəlmanlara dəstək olmaqdır. Naqis ağlımla gördüm ki, bəzi şeytan xislətlilər özlərini haqqlı hesab edərək, cəmiyyətdəki nüfuzlu şəxsləri və alimləri susdurmağa və çəkindirməyə çalışırlar. Həqiqət aydındır: İslam Respublikası, onun dəyərləri və Vilayət Fəqih İmam Xomeyninin (r.ə) mirasıdır və ciddi şəkildə dəstəklənməlidir.

Mən həzrəti Ayətullah Xameneini çox məzlum və tək görürəm. Onun sizin dəstəyinizə və köməyinizə ehtiyacı var. Siz hörmətli şəxslər, ifadələrinizlə, görüşlərinizlə və ona olan dəstəyinizlə cəmiyyəti yönləndirməlisiniz. Bu inqilab zədələnsə, məlun şahın vaxtı kimi belə olmayacaq. İmperializmin təşəbbüsü və fəaliyyətləri dinsizlik və əxlaqsızlığı yaymaqla, bizi geri dönüşü olmayan bir yola çəkməkdir.

Mübarək əllərinizdən öpərək, bu bəyanım üçün üzr istəyirəm. Sizinə üz-üzə görüşmək şərəfinə nail olub, bu sözləri demək istəsəm də, qismət olmadı. Sizin əsgəriniz olaraq əllərinizdən öpürəm.